AĞDAŞ: qazanılmış uğurlar problemlərin həllinə təminat yaradır

❒ ***Dövlət başçısı İlham Əliyevin regionların inkişafına göstərdiyi davamlı diqqət və qayğı Ağdaş rayonunda da ötən il sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsinə təkan vermişdir. Bunu 2016-cı ilin yekunları da təsdiqləyir.***

Bu günlərdə rayonda olarkən ötən ilin hesabat göstəriciləri ilə ətraflı tanış olduq, mütəxəssislərin mülahizələrini dinlədik. Ayrı-ayrı kollektivlərdə, ictimai yerlərdə əhalinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşlərdə də ötən il qazanılmış uğurlar diqqət mərkəzində oldu. Nailiyyətləri artırmaq üçün cari ildə nəzərdə tutulan tədbirlər, həllini gözləyən problemlər də nəzərdən qaçmadı. Beləliklə, Ağdaşa son səfərimizin təəssürat və qənaətlərini oxucularımıza çatdırırıq.

Rayonda keçən il iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının və göstərilən xidmətlərin həcmi 257 milyon manatlıq olmuş, adambaşına düşən məhsul istehsalı 2 min 383 manat təşkil etmişdir. Bu dövrdə sənayedə 8,2 milyon manatlıq və ya ümumi daxili məhsulun 3,2 faizi qədər, kənd təsərrüfatında 103,2 milyon mantlıq (40,1 faiz) məhsul istehsal edilmiş, tikintidə 47,6 milyon manatlıq (18,5 faiz) abadlıq-quruculuq işləri görülmüşdür. Ticarətdə 92,4 milyon manatlıq (36 faiz), nəqliyyat və rabitədə 5,6 milyon manatlıq (2,2 faiz) xidmətlər göstərilmişdir. Sənaye istehsalı 6,9 faiz, ticarət və rabitə xidmətinin həcmi isə 3,6 faiz artmışdır.

Prezident İlham Əliyevin sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluğunun artırılması, iqtisadiyyata yeni sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqlarının icrasını təmin etmək məqsədilə Ağdaş RİH-də xüsusi qərargah yaradılmışdır. Qərargah ciddi təhlillər əsasında rayonun sosial-iqtisadi inkişafı ilə bağlı proqnozlar hazırlamış, sahibkarların, vətəndaşların təkliflərini nəzərə almaqla yeni iş yerləri yaradılması üçün zəruri tədbirlər həyata keçirmişdir.

Dövlət başçısının regionların özünü maliyyələşdirməsi, iqtisadi potensialdan daha səmərəli istifadə olunması, idxalı əvəz edən və ixracyönümlü istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması istiqamətində verdiyi tapşırıqlara əsasən Ağdaşda da bir sıra işlər görülməkdədir. Rayonda yaradılan yeni sənaye sahələrindən Meyvə emalı zavodunda və Yem emalı fabrikində ötən il istehsal prosesinə başlanılmışdır. Biyan istehsalı və emalı müəssisəsində isə tikinti-quraşdırma işləri davam etdirilmişdir.

Ötən il İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu 20 sahibkara 9 milyon 250 min manat güzəştli kredit vermişdir. Bu önəmli dəstəkdən bacarıqla faydalanan iş adamları il ərzində 50-dən çox xidmət və istehsal sahəsi yaratmışlar. Rayonda əhalinin məşğulluğuna köməklik göstərilməsi üçün keçirilən əmək yarmarkasında 153 boş yer üzrə vətəndaşlara iş təklif olunmuşdur. Çoxmənzilli yaşayış binalarının təmiri, eləcə də, abadlıq-yaşıllaşdırma sahəsində əlavə iş yerləri açılmışdır. Bu məqsədlə dövlət büdcəsindən xüsusi vəsait ayrılmış və tədbir bu il də davam etdirilir. Ümumiyyətlə, görülmüş tədbirlər nəticəsində ötən il Ağdaşda 829-u daimi olmaqla, 4847 yeni iş yeri yaradılmışdır.

Ötən il rayonda xidmət infrastrukturunun təkmilləşdirilməsi və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi sahəsində də müəyyən tədbirlər görülmüşdür. Əvvəlki illərdə olduğu kimi, rayonda əhalinin elektrik enerjisi, təbii qaz və içməli su təchizatının daha da yaxşılaşdırılması diqqət mərkəzində olmuş, bu xidmət sahələrində zəruri işlər davam etdirilmişdir.

Ağdaş Elektrik Şəbəkəsi 2016-cı ilin fevralından "Azərişıq" ASC-nin tərkibinə verilmişdir. Bu da şəbəkənin yeniləşdirilməsinə, xidmətin yüksəldilməsinə daha üstün şərait yaratmışdır. Ağdaş şəhərində elektrik yarımstansiyası, rayon ərazisində 15 transformator istifadəyə verilmiş, 3 yeni transformatorda isə son tamamlama işləri görülür. Yaşayış məntəqələrində 47 kilometrlik müxtəlif gərginlikli elektrik xətləri əsaslı və cari, 58 transformator yarımstansiyaları əsaslı təmir edilmişdir.

Rayonda təbii qaz təchizatının yaxşılaşdırılması sahəsində də müəyyən işlər görülmüşdür. Ağdaş şəhərində və təbii qazla təmin olunan kəndlərdə 3 min metr uzunluğunda müxtəlif ölçülü qaz xətləri yenisi ilə əvəz olunmuş, 22 qaztənzimləyici şkaf qoyulmuşdur. 2016-cı ildə Pirkəkə, Ərəbocağı, Aşağı Ləki və Hapıtlı kəndlərində tikinti-quraşdırma işləri başa çatdırılmış, sakinlərə qaz verilişi bərpa edilmişdir.

Rabitə və informasiya xidmətlərinin yaxşılaşdırılması sahəsində də işlər davam etdirilmişdir. Rabitə müəssisələri gəlir proqnozunu tam yerinə yetirmiş, əhaliyə və müəssisələrə 538,4 min manatlıq xidmət göstərilmişdir. 138 abonentə yeni telefon çəkilmiş, internet istifadəçilərinin sayı 455 abonent artırılmışdır. Ağdaş Poçt filialı üzrə gəlir proqnozu 105,4 faiz yerinə yetirilmişdir ki, bu da 2015-ci illə müqayisədə 29 min 481 manat artıqdır.

Ağdaş şəhərinin su və kanalizasiya sistemlərinin yeniləşməsi layihəsi çərçivəsində Türyançay su anbarı ərazisində hər birinin məhsuldarlığı saniyədə 25 litr olmaqla 4 yeni subartezian quyusu qazılıb istifadəyə verilmişdir. Türyançay su anbarı ərazisində 5 min kubmetrlik yeni su anbarının tikintisində son tamamlama işləri getməkdədir. 6,5 min metr 560 millimetrlik diametrli yeni magistral su xətti çəkilərək istismara verilmişdir.

Dövlət proqramı çərçivəsində rayonun içməli su problemi olan yaşayış məntəqələri müəyyənləşdirilmiş, həmin ərazilərə modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün lazımi sənədlər hazırlanaraq aidiyyatı orqanlara təqdim olunmuşdur. Hazırda ilkin olaraq 4 yaşayış məntəqəsində Aşağı və Yuxarı Nemətabad, Güvəkənd və Əmirarx kəndlərində layihələndirmə işləri başa çatdırılmış və bu günlərdə tikinti-quraşdırma işlərinə başlanması nəzərdə tutulur.

Prezident İlham Əliyevin ənənəvi təsərrüfat sahələrinin, xüsusən pambıqçılığın kənd əhalisinin məşğulluğunun təmin olunmasında rolunun artırılması ilə bağlı verdiyi tapşırıqlar rayonda böyük razılıqla qarşılanmışdır. 2016-cı ildə 6345 nəfər məhsul istehsalçısına 1 milyon 122 min manat əkin üçün subsidiya hesablanıb verilmişdir.

Ötən il pambığın alış qiymətinin artırılması bu sahənin Ağdaşda da yenidən inkişafı üçün zəmin yaratmışdır. Fermerlər rayonda pambıqçılığın inkişaf etdirilməsində yüksək nəticələrin əldə olunması üçün zəngin təcrübə və imkanlardan səmərəli istifadə etmişlər. Kəndlərdə ənənəvi məşğulluq sahələrinin dirçəldilməsi işsizliyin aradan qaldırılmasına kömək etmiş, mövsüm ərzində 3 min nəfərdən çox kənd sakini haqqı ödənilən işlə təmin edilmişdir.

Pambıq əkininin dəfələrlə artması bu gəlirli sahənin geniş perspektivlərindən xəbər verir. Belə ki, ötən il Ağdaş rayonunda 1134 hektar ərazidə çiyid səpini aparılmış və sahələrə aqrotexniki qulluq edilərək bol məhsul əldə edilmişdir. Bu, 2015-ci ilə nisbətədən 38 dəfə çoxdur. Ağdaşlı fermerlər dövlətin yardımından bəhrələnərək gələn il rayonda 2 min 500 hektardan çox sahədə pambıq əkini aparmağı planlaşdırırlar. Bunun üçün hazırlıq işləri görülür, istifadəsiz torpaq sahələrində əkin aparılması nəzərdə tutulur.

Mütəxəssislər bildirdilər ki, bu il rayonda ənənəvi sahələrdən olan baramaçılığın inkişafı üçün də kəndlərdə geniş izahat işləri aparılmışdır. Qax Damazlıq İpəkçilik Stansiyasından 50 qutu toxum gətirilərək Ağdaşda kümçülərə paylanmışdır. İlk addım olaraq, ötən mövsümdə gözlənilən 1 ton barama əvəzinə, 2 ton məhsul tədarük olunaraq "Şəki İpək" ASC-yə təhvil verilmişdir. Ayrı-ayrı ailələr baramaçılıqdan 5-6 həftə ərzində 1000--1500 manat qazanc əldə etmişlər. Bu nəticələr 2017-ci ildə baramaçılığı daha da inkişaf etdirmək üçün yüksək stimul yaratmışdır. Daxili imkanlar və dövlətin dəstəyi hesabına rayonda 65 min tut tingi əkilmişdir.

Keçən mövsümdə 11 min 93 hektar taxıl sahəsində lazımi aqrotexniki qulluq işləri aparılmış, biçin dövründə mövcud kombaynların gücündən səmərəli istifadə edilmiş və 34 min ton taxıl istehsal olunmuşdur. Dənli və dənli paxlalılarda ötən ilə nisbətən məhsuldarlıq 1847 ton artaraq 38 min 335 ton olmuşdur. Yazlıq və payızlıq dənlilərin istehsalı 2 min 566 ton, çəltik istehsalı 925 ton artmışdır. Hektardan məhsuldarlıq payızlıq və yazlıq buğda üzrə 2,6 sentner artaraq 33,4, dənli və dənli paxlalılarda 0,6 sentner artaraq 30,7 olmuşdur. Ağdaşda çəltikçiliyin inkişaf etdirilməsi üçün əlverişli imkan var. 1311 hektarda çəltik əkilmiş və bol məhsul əldə edilmişdir.

Rayonda 1263 hektar kartof, bostan və tərəvəz sahələrindən 21 min 850 ton məhsul istehsal olunmuşdur. İl ərzində 347 hektardan 1607 ton dənlik qarğıdalı, 253 hektardan 3 min 896 ton bostan məhsulları götürülmüşdür. 2017-ci ilin məhsulu üçün 13 min 911 hektar sahədə şum aparılmışdır. 12 min 312 hektar sahədə payızlıq taxıl əkilmişdir. İxtisaslaşmış və toxum istehsalı ilə məşğul olan 3 təsərrüfatda istehsal olunmuş arpa və buğda rayonda və kənarda taxıl əkənlərə satılmışdır. 1 hektar günəbaxan, 114 hektar lobya, 3 hektar vələmir, 231 hektar biyan əkilmişdir. 1642 hektar meyvə bağlarından 20 min tondan yuxarı məhsul əldə olunmuşdur. Bakı şəhərində keçirilən satış yarmarkasına fermerlər 200 tondan yuxarı müxtəlif növ yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları çıxarmışlar.

Heyvandarlığın inkişafı ilə bağlı zəruri tədbirlər də yüksək səviyyədə həyata keçirilmişdir. Hazırda rayonun təsərrüfatlarında 35 min 733 baş inək və çamış, 95 min 737 baş qoyun və keçi var. 2016-cı il ərzində 12 min 271 ton diri çəkidə ət, 55 min 998 ton süd, 196,2 ton yun istehsal olunmuşdur.

Melioratorlar bildirdilər ki, Ağdaş rayonunun ümumi sahəsi 102 min 305 hektardır və onların da 34 min hektardan çoxu əkin yerləridir. Həmin torpaqlar Türyançay və Kür çayları, həmçinin Yuxarı Şirvan kanalı vasitəsilə suvarılır. Rayonun ərazisindən keçən Yuxarı Şirvan kollektoru qrunt və digər şoranlaşmış suların axıdılmasını təmin edir. Rayonun torpaqlarından 73,9 faizini Suvarma Sistemləri İdarəsi öz axını ilə, 26,1 faizini isə Pirəzə Mexaniki Suvarma İdarəsi mexaniki üsulla su ilə təmin edir.

Suvarma Sistemləri İdarəsi 2016-cı il ərzində 25 min 230 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmişdir. 2016-cı ildə 9 min 60 hektar dənli bitkilər sahəsində 3 dəfə, 787 hektar bostan tərəvəz sahəsində 6 dəfə, 410 hektar biyan sahəsində 2 dəfə, 9 min 487 hektar yem bitkiləri sahəsində 4 dəfə, 1709 hektar çoxillik bitkilər sahəsində 4 dəfə, 3 min 642 hektar həyətyanı sahədə 7 dəfə vegetasiya suvarması aparılmışdır. 10 yaşayış məntəqəsini, 9 min 650 hektar sahəni mexaniki yolla suvarma suyu ilə təmin edən Pirəzə Mexaniki Suvarma İdarəsi isə Kür və Türyançay çaylarının mənbəyindən 37,4 min kubmetr su qaldırmış, təkrar ötürmə üçün 51,6 min kubmetr su vermişdir.

Ölkə başçısının tapşırığı və Prezident Administrasiyasının rəhbərliyi ilə yaradılmış işçi qrupu 2016-cı ildə respublikada torpaqlardan səmərəli istifadə edilməsi və kənd təsərrüfatı istehsalında yüksək nəticə əldə olunması məqsədi ilə Ağdaş rayonunda da 15 min 800 hektar əkinə yararlı, lakin suvarılmayan torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması üçün lazımi sənədlər və təkliflər hazırlayaraq aidiyyatı orqanlara təqdim etmiş və bu istiqamətdə konkret işlərə başlanılmışdır.

Ağdaş Meşə Mühafizəsi və Bərpası Müəssisəsi meşə əkini və ting səpini üçün 84,8 hektar sahədə torpaq hazırlığı işləri aparmış, ondan 77,8 hektar sahədə mədəni meşə əkini əkilərək akasiya, nar və tut cinslərindən ibarət, ümumilikdə, 134 min 820 ədəd ting sərf edilmişdir. 3 hektar sahədə səpin, baramaçılığın inkişafı üçün 3 hektar sahədə 120 min ədəd toxmacar əkilmiş, 1 hektar sahədə isə 50 min ədəd çilik basdırılmaqla kökləndirmə işi aparılmışdır. Qış mövsümündə məktəblərin, uşaq baxçalarının, xəstəxanaların və əhalinin istiliklə təmin olunması üçün sanitar qırıntıdan 545 kubmetr oduncaq sahəsi ayrılmışdır.

Rayonda olarkən yol inşaatçıları ilə də görüşdük. Bildirildi ki, son illər yol infrastrukturunun yaradılması ilə bağlı mühüm tədbirlər görülür. 11700 nəfər əhalisi olan 10 yaşayış məntəqəsini birləşdirən, 33 kilometr uzunluğunda Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı yolunun qurulması məqsədi ilə işçi qrupu yaradılmış, ilkin sənədləşdirmə işləri aparılaraq Prezident Administrasiyasına təqdim olunmuşdur. Hazırda bununla əlaqədar "Azəravtoyol" layihə-smeta sənədlərinin hazırlanmasına start vermiş və konkret işlərə başlamışdır.

Ağdaş Yol İstismarı MMC xidmət etdiyi avtomobil yollarında 206 min manatlıq saxlanma və təmir işlərini yerinə yetirərək nəqliyyat vasitələrinin təhlükəsiz və fasiləsiz hərəkətini təmin etmişdir. Asfalt-beton örtüklü avtomobil yollarında çökmələr və çalalar asfalt-betonla doldurularaq təmir olunmuş, 14,7 min kvadratmetr sahədə xırda dənəli asfalt-betonla çala təmiri işləri aparılmışdır.

Yerli əhəmiyyətli avtomobil yollarında da il ərzində təmir işləri görülmüşdür. Qumlax, Kükəl-Ərəb, Kotanarx-Cardam, Qoşaqovaq, Qulbəndə-Bəylik, Şordəhnə, Nehrəxəlil, Yenicə, Şıxlı çınqıl örtüklü kənd avtomobil yolları çınqıl materialı əlavə olunaraq avtoqreyderlə hamarlanmış, Şəmsabad-Tofiqi, Gürcuva, Dovudlu, Qaradeyin çınqıl örtüklü kənd avtomobil yollarında isə hamarlama işləri aparılmışdır.

Humanitar sahənin fəaliyyəti də son illərdə uğurlarla müşayiət olunmuşdur. Heydər Əliyev Fondu rayonun Pirkəkə kəndində 200 yerlik yeni məktəb binası və Habil Əliyev adına Musiqi məktəbi üçün yeni bina inşa etdirmiş, Maqsud Şeyxzadə adına gimnaziyanın binası əsaslı təmir edilərək, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Keçən il ölkədə tikilib istifadəyə veilmiş 29 yeni məktəbin 4-ü Ağdaş rayonunun payına düşür. Qarağanşıxlar, Qülbəndə, Ərəbşəki, Tofiqi kəndlərində 660 şagird yerlik 1 tam orta, 3 ümumi orta məktəbin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Yeni dərs ilinə hazırlıqla əlaqədar Xosrov kənd tam orta məktəbin dam örtüyü təmir edilmiş, Bəkir Nəbiyev adına 3 nömrəli, Tofiq İsmayılov adına 8 nömrəli şəhər tam orta, Hapıtlı kənd ümumi orta, Binələr kənd ibtidai məktəblərində və Təhsil Şöbəsinin inzibati binasında dövlət vəsaiti hesabına təmir işləri aparılmışdır.

Son 12 ildə dövlət büdcəsi və Heydər Əliyev Fondunun vəsaiti hesabına rayonda 17 yeni məktəb tikilmiş, 7 məktəbdə əlavə sinif otaqları inşa edilmiş, 7 ümumtəhsil məktəbi əsaslı təmir olunmuşdur. Bütövlükdə, 8 min nəfərdən artıq şagirdin təhsil şəraiti yaxşılaşdırılmışdır. Bütün bunlar təhsil uğurlarını artırmaq üçün mötəbər zəmin yaratmışdır. Ötən il məzunlardan 268 nəfəri tələbə adına layiq görülmüş, ali məktəblərə keçirilən qəbul imtahanlarında ixtisas qrupları üzrə 36 nəfər 500-dən, 9 nəfər isə 600-dən artıq bal toplamışdır.

Rayonun icra qurumlarında apardığımız söhbətlərdən məlum oldu ki, yuxarıda sadalanan irəliləyişlərlə bərabər, rayonda həllivacib problemlər də qalmaqdadır. Şəhərdaxili və kəndarası yolların əsaslı təmiri (asfaltlaşdırılması), rayonun 74 yaşayış məntəqəsindən 21-nə təbii qaz verilişinin bərpa olunması, təbii qazla təmin olunan 53 yaşayış məntəqəsinin qaz təsərrüfatında təmir-bərpa işlərinin aparılması və təbii qaz çəkilişinə başlanılmış yaşayış məntəqələrinin qazlaşdırılmasının sürətləndirilməsi qarşıda duran mühüm məsələlər sırasındadır. Enerji təsərrüfatının yenidən qurulmasına, istismar müddəti başa çatmış elektrik transformatorlarının, naqil və dirəklərinin əsaslı təmirinə və ya yenisi ilə əvəz edilməsinə də ehtiyac var.

"Modul" tipli sutəmizləyici qurğuların quraşdırılmasının sürətləndirilməsi, su layları olan yaşayış məntəqələrində artezian və subartezian quyularının qazılması ilə bağlı işlər də həllini gözləyir. Yataqxanalarda, ümumtəhsil məktəblərində, uşaq bağçalarında və digər sosial obyektlərdə məskunlaşmış qaçqın və məcburi köçkünlər üçün Qarabağ müharibəsi, Çernobıl, Böyük Vətən Müharibəsi əlilləri və şəhid ailələri üçün yaşayış binalarının tikintisi, şəhər ərazisində qəzalı vəziyyətdə olan çoxmənzilli binalarda yaşayanlar üçün yeni binaların inşası qarşıda duran vəzifələrdəndir.

Ağdaş şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması və şəhər ərazisinin 2 dəfə genişləndirilməsi nəzərə alınmaqla küçələrin asfaltlaşdırılması, Ləki qəsəbəsinin su-kanalizasiya sisteminin yenidən qurulması, 68 ümumtəhsil məktəbindən qəzalı vəziyyətdə olan 14-ü üçün yeni modul tipli məktəblərin quraşdırılması və 27-nin yerləşdiyi binaların əsaslı təmiri, 30 uşaq bağçasından qəzalı vəziyyətdə olan 8-i üçün yeni binaların tikintisi və 15-nin yerləşdiyi binaların əsaslı təmiri, səhiyyə və mədəniyyət müəssisələri üçün yeni binaların tikintisi və mövcud binaların əsaslı təmiri məqsədilə ardıcıl və sistemli iş aparılmalıdır.

Göründüyü kimi, ağdaşlıları qarşıda daha məsul işlər, ciddi vəzifələr gözləyir. İnanırıq ki, dövlətin fəal dəstəyi və yerli ehtiyatların hərəkətə gətirilməsi bütün bu hədəflərin gerçəkləşdirilməsini təmin edəcəkdir.

Ziyəddin SULTANOV,
"Xalq qəzeti"nin bölgə müxbiri